Ədalət 2019.- 15 may.- S.4.

# QAX: NƏ GÖZƏL DUYĞUDUR SEVİNC BƏXŞ ETMƏK...

**...Son illər yolum nə vaxt Qax rayonuna düşürsə burada ürəyimcə rahatlığa qovuşuram. Əlbəttə, Qaxın təkrarsız təbiət gözəllikləri - dağlar, meşələr, çaylar, göz oxşayan düzlər sənə onsuz da bu rahatlığı bəxş edir. Ancaq başqa bir nüans da var. Bu gözəlliyi daha da mənalandıran firavan kəndlər, ən yaxşı kurort adlarını xatırladan müasir şəhər mədəniyyəti Qaxın doğmalığını, ruhuna yaxın olduğunu bir daha yada salır, səni qeyri-adi bir rahatlıqla qovuşdurur.**

Qaxın həm də cənab Prezidentin ən çox sevdiyi yerlərdən biri olduğu da qürurvericidir. Ölkə rəhbəri bu yurd haqqında elə gözəl və doğma fikirlər ifadə edib ki...

Bəli, günün reallığı belədir. Qax tanınmaz dərəcədə inkişaf edərək təbiətlə özünəməxsus bir gözəllik harmoniyası yaradıb. Bu səbəbdən də bəzən heç özün də dəqiq bilmirsən ki, nədən elə ruhun beləcə rahatdır...

- Ən vacib və ən başlıca səbəbsə,





əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik siyasətinin nəticələridir - deyə Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev mənim düşüncələrimə daha mükəmməl məzmun verir. Və cənab Prezidentin çıxışlarından misal gətirir: "...İqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası ilə təmin etmişik". Respublikanın hər yerində olduğu kimi Qax rayonunda da 2019-cu ilin birinci rübünün yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncaq fəallıq şəraitində keçirilmişdir. Məruzə ilə çıxış edən Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev demişdir:

- Məlum olduğu kimi 2019-cu ilin aprel ayının 30-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir.

Dövlət başçısı İlham Əliyev giriş nitqində ötən il prezident seçkilərindən sonra respublikamızda islahatların yeni mərhələsinin başlandığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirməklə son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkənin olmadığını qeyd etmişdir. Cari ilin birinci rübündə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını bildirən dövlət başçısı ilin əvvəlindən ümumi daxili məhsulun 3 faiz, sənaye istehsalının 4.4 faiz, qeyri-neft sektorunda sənaye istehsalının 15.6 faiz, kənd təsərrüfatının 3.6 faiz, əhalinin gəlirlərinin 5.5 dəfə artdığını, ölkə iqtisadiyyatına 2.8 milyard dollar sərmayə qoyulduğunu müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır. Qeyd olunmuşdur ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülməklə 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu bildirmişdir.

Regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışan Prezident İlham Əliyev bildirmişdir ki, "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik".

Daha sonra Musa Şəkiliyev çıxışında demişdir:

- Bildirirəm ki, "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda rayonumuz üçün nəzərdə tutulmuş 21 bənddən ibarət tədbirlərin icrası uğurla həyata keçirilmişdir. Yeni qəbul olunmuş Dövlət Proqramında da rayonumuz üzrə 17 bənddən ibarət tədbirlərin icrası nəzərdə tutulmuşdur.

2019-cu ilin birinci rübündə rayonumuzda müvafiq sahələrdə bir sıra işlər görülmüş və məqsədyönlü tədbirlər həyata keçrilmişdir. Belə ki, 2019-cu ilin birinci rübündə rayon üzrə məhsulun ümumi buraxılışı 27 milyon 726 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1.6 faiz az olmuşdur. İqtisadiyyatın əsas sahələri üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışının tərkibində sənaye məhsulu istehsalı 3 milyon 896 min manat, və ya 39.1 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 4 milyon 452 min manat və ya 5.9 faiz, nəqliyyatda 559 min manat və ya 5.2 faiz, rabitədə 283 min manat və ya 8.6 faiz, ticarətdə 12 milyon 47 min manat və ya 3.1 faiz çox olmuşdur. Tikinti sahəsində görülən işlər 6 milyon 459 min manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 226 min manat az olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə tikinti sahəsindəki azalma qeyri-dövlət mülkiyyəti üzrə tikinti-quraşdırma işlərinin cari ilin birinci rübündə az olması ilə izah olunur.

Yığıncaqda qeyd olunduğu kimi hesabat dövründə Qax rayonunda 201 yeni iş yeri açılmış, orta aylıq əmək haqqı 280.8 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 28.9 manat çox olmuşdur.

2019-cu ilin birinci rübündə rayonun gəlirləri 769.2 min manat proqnoza qarşı büdcəyə 801.3 min manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 104.2 faizini təşkil etməklə 32.1 min manat çox olmuşdur.

Büdcə daxilolmalarında dövlət müəssisələrinin xüsusi çəkisi 32.3 faiz və ya 259.3 min manat, qeyri-dövlət müəssisələrinin xüsusi çəkisi 47.2 faiz və ya 376.6 min manat, fiziki şəxslərin xüsusi çəkisi 20.5 faiz və ya 165.5 min manat təşkil etmişdir. Hesabat dövründə rayonda 653 hektar sahədə yonca, 118 hektar sahədə tərəvəz, 236 hektar sahədə vələmir, 285 hektar sahədə kartof, 10 hektar sahədə qarğıdalı əkini aparılmış və 165.6 hektar sahədə yeni fındıq bağları salınmışdır.



Rayon üçün ənənəvi istehsal sahələri olan baramaçılığın və tütünçülüyün daha da inkişaf etdirilməsinə xüsusi diqqət verildiyindən bu sahədə zəruri tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir.

Cari ildə rayon üzrə 35 ton barama istehsalı nəzərdə tutulmuşdur ki, bu məqsədlə Rayon Damazlıq İpəkçilik Stansiyasında mövsümə hazırlıqla əlaqədar lazımi tədbirlər həyata keçirilmişdir. Rayonda damazlıq baramaçılığın inkişaf etdirilməsi məqsədilə müəssisədə 220 qutu damazlıq barama toxumu hazırlanmışdır. Cari təsərrüfat ilində 532 hektar sahədə tütün əkini nəzərdə tutulmuşdur. Bu məqsədlə tütünçülüklə məşğul olan sahibkarlar tərəfindən 8100 $m^2$ sahədə sadə tipli istixanalarda tütün şitilliyi salınmışdır.

Artıq tütün şitilnin sahələrə köçürülməsinə başlanmışdır.

Rayonda yaradılmış Aqroparkda 2019-ci ilin birinci rübündə 136 hektar sahədə badam bağları salınmışdır.

Cari ildə yeni salınması nəzərdə tutulan meyvə bağlarında damcılı suvarma sisteminin quraşdırılması ilə əlaqədar 10 min tonluq su anbarının tikintisi başa çatdırılmış, 20 min tonluq su anbarının tikintisi isə davam etdirilmişdir. Bağlara suyun paylanılması məqsədi ilə Aqropark ərazisində su anbarlarına su vurmaq üçün 3 ədəd nasos stansiyası tikilmişdir. Həmçinin Aqropark ərazisində yazlıq bitkilərin əkini ilə əlaqədar hazırlıq işləri həyata keçirilmişdir.

**Aqroservis filialı tərəfindən rüb ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına 1201 ton azot, 207 ton ammofos, 80 ton nitroammofoska, 68 ton karbamid gübrələri və alaq otlarına qarşı kimyəvi mübarizə aparılması üçün 1550 litr həcmində müxtəlif növ pestisidlər gətirilərək kənd təsrrüfatı istehsalçılarına 70 faiz güzəştlə satılması təmin olunmuş, hazırda mineral gübrələrin rayona gətirilməsi istiqamətində işlər davam etdirilir.**

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**